Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

## İctimai və dövlət maraqlarının müdafiəsi

**Bu gün ictimai marağın müdafiəçisi və ona nəzarət edən dövlət cəmiyyətin bütün qruplarının marağında olan sosial məsələlərin həllinə çalışır. Dövlət müxtəlif formada atılan addımlarla da öz vətəndaşının, cəmiyyətin rifah halının yüksəlməsinə nail olur.**

Bütün bunlar, ortaya qoyulan cəsarət məhz ictimai və dövlət maraqlarının təmin olunması üçündür.Bununla yanaşı ölkə başçısı daha bir konkret fikirləri ilə sözügedən maraqlardan bir addım da olsun geriyə çəkilmək niyyətində olmadığını isbat etdi.

Prezident İlham Əliyev 27 Sentyabr - Anım Günü ilə əlaqədar xalqa müraciətində səsləndirdiyi bəzi fikirlərə diqqət edək.Prezident həmin müraciətində bildirdi ki,

Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi: "Biz müharibəni hərbi-siyasi yollarla həll etdik, müharibə arxada qaldı, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qaldı.

rın qorunması hər şeydən öncə vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti və bu fəaliyyətin ictimai faydalılıq əmsalı ilə bağlıdır. Şübhəsiz ki, hüquqi dövlətdə hüquq və qanunun vəzifəsi dövlətin maddi və mənəvi, bütün növ sərvətlərinə inkulizivliyi, yəni hamı üçün əlçatanlığını təmin etməkdən ibarətdir. Ancaq vədəndaş fəallığı aşağı olduqda biz nə hüququn, nə də qanunun lazımı səviyyədə tətbiqini görmürük. Ona görə də burada ictimai maraqların fərdi maraqlardan daha üstün tutulması zərurəti ortaya çıxır ki, elə cəmiyyətin inkişaf səviyyəsi də bəzən bu kriteriya ilə qiymətləndirilir. 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan xalqı yenidən müzəffər xalq kimi özünə inamını artırdı. Biz yeni tarixi mərhələdə yeni keyfiyyətdə ictimai münasibətlər və mental keyfiyyətlər qazanmağı bacarmalıyıq. Bu bizim gələcək nəsillər və tarix qarşısında borcumuzdur. Bu baxımdan görürük ki, Prezident zəruri maraqların qorunması ilə bağlı gözəl nümunə ortaya qoyur.

İctimai maraqların dövlət maraqlarına çevrilməsi üçün hər bir vətəndaşın sosial qayğısının nəzərə alınması vacibdir. Bu istiqamətdə aparıcı şəxslər, eşidilən simalar üzərinə düşən vəzifəni, yəni vətəndaşlıq borcunu yerinə yetirirlər. Bu gün vacib məsələlərin müzakirəsi, sosial inkişafın təmin olunması istiqamətində fundamental iş aparılması nəticəsində dövlət və ictimai maraqlar üst-üstə düşür. Ümumi ictimai maraqlar həmişə önəmlidir. Bu istiqamətdə Azərbaycan dövləti tərəfindən böyük işlər görülür. Ümummilli lider Heydər Əliyev tərəfindən dövlətin əsaslarının bünövrəsi qoyulub, işləyən və səmərəli dövlət modeli hazırlanıb. Ona görə cəmiyyətlə dövlət arasında sıx körpü var. Şübhəsiz ki, burada Prezident İlham Əliyevin fəaliyyətinin xüsusi rolu var. Ölkə başçısının vətəndaşlarla görüşləri, verdiyi müsahibələr, etdiyi müraciətlər, bölgələrə səfərləri, görülən işlərlə bağlı hesabatlarıbu istiqamətdə mühüm əhəmiyyət kəsb edir.

# Prezidentin xarici mediaya yeni açıqlamalarında dövlət və ictimai maraqların vəhdət nümunələri...

Son dönəmlər ölkəmizdə baş verən islahatlar dövlətin ictimai maraqların təminatçısı rolunda çıxış etməsinin nəticəsidir. Həyata keçirilən çoxşahəli sosial islahatlar, struktur dəyişiklikləri həmin maraqların tam təmin olunmasına yönəldilib. Yəni dövlət üçün cəmiyyətin maraqlarını təmin etmək əsas məsələ hesab edilir. Onun ayrı-ayrı nümunələrini bu gün həyata keçirilən təhsil, səhiyyə, gənclər, idman siyasətində də görmək olar. Bunu eləcə də, ictimai maraqların təmin edilməsində, vətəndaş cəmiyyəti institutlarının, kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyinin verilməsində görmək mümkündür. Bir sözlə, dövlət üçün sözügedən sahələrin inkişafı prioritet kəsb edir. Bundan başqa, dövlətin maraqlarına daxil olan siyasi-iqtisadi, hərbi-təhlükəsizlik kimi məsələlərdə ictimai maraqların təmin olunması da əsas şərtdir.

Bu istiqamətə ən mühüm addımları həm də cənab Prezident atır. Ölkə başçısının etdiyi çıxışlarda bu təzahürləri aydın şəkildə sezmək mümkündür.

### Prezident nümunəsi

Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev Türkiyənin "Anadolu" Agentliyinə müsahibəsində səsləndirdiyi bəzi fikirlərə diqqət edək. Prezident qonşu dövlət olan İranla bağlı sərt fikirlər səsləndirib:

"O ki qaldı bizim sərhədimizin yaxınlığında keçirilən hərbi təlimlərə, bu, çox təəccüblü bir məsələdir. Çünki 30 illik müstəqillik dövründə belə hadisələr olmamışdı. İlk növbədə deməliyəm ki, hər bir ölkə öz ərazisində istədiyi hərbi təlimi keçirə bilər. Bu onun



suveren hüququdur, söz ola bilməz.

Ancaq eyni zamanda bunu zaman kəsiyində analiz edərkən görürük ki, bu, heç vaxt olmamışdı. Nə üçün məhz indi? Nə üçün bizim sərhədimizdə? Bu sualları mən yox, Azərbaycan cəmiyyəti verir. Bu sualı dünya azərbaycanlıları verir. Bir sual da verilir ki, nə üçün işğal dövründə o bölgədə təlim keçirilmirdi?

Ermənilər Cəbrayılda, Zəngilanda, Füzulidə oturduğu dövrdə nə üçün təlimlər keçirilmirdi? Nə üçün biz bu torpaqları azad edəndən sonra, 30 illik əsarətə və işğala son qoyandan sonra bu keçirilir? Bu suallar legitim suallardır. Əlbəttə, biz istəyirik ki, bölgədə uzunmüddətli əməkdaşlığa xələl gətirəcək heç bir hal olmasın. Bir də demək istəyirəm ki, Azərbaycan burada da çox özünü məsuliyyətlə aparır və təmkinlə aparır. Ümid edirik ki, bizim legitim addımlarımıza emosional reaksiya yeqin ki, müvəqqəti xarakter daşıyır".

Göründüyü kimi, ölkə başçısı daima yaxın qonşuluq əlaqələrinə önəm verərək, normal davranış sərgilədiyimiz İranla bağlı açıq və sərt fikirlər səsləndirir.

Elə ilk gündə düşmənin müdafiə xəttini yarmağa nail olduq, bütün 44 gün ərzində yalnız irəli getdik.

Ermənistanın yeni hakimiyyəti çox böyük səhv etdi, bunun nəticəsində də acı məğlubiyyətə uğradılar.

Prezident bəyan edib ki, Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati ərazi mövcud deyil və əgər kimsə "Dağlıq Qarabağ" adlı ölünü diriltmək istəyirsə, onu öz ərazisində diriltsin, öz ərazisində "Dağlıq Qarabağ" adlı qurum yaratsın, respublika yaratsın, cəmiyyət yaratsın: "Biz də onu tanıyarıq, ancaq Azərbaycanda yox! Bu məsələ öz həllini tapdı. Bunu mən deyirəm - Azərbaycanın Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı. Hər kəs bu sözlərlə hesablaşmalıdır və hesablaşacaq".

### İctimai maraqların fərdi maraqlardan daha üstün tutulması zərurəti ortaya çıxır...

Dərindən analiz etdikdə, əlbəttə, fərdi maraqlar cəmiyyətdaxili bütün münasibətlər sistemində ayrıca bir məsələdir. Onların müdafiə olunmasına gəldikdə isə qeyd etmək lazımdır ki, demokratik cəmiyyətdə ictimai maraqla-

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**

Bakı xəbər.-2021.-2-4 oktyabr.-S.4.